Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Vətən üçün yaşayanlar yaşadırlar Vətəni

**Uzun Həsənin 595 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Vətən üçün yaşayanlar yaşadırlar Vətəni:** Uzun Həsənin 595 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.- 19 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Azərbaycan, adın oddur, özün - işıq, sözün - işıq.
Biz də sənin bu müqəddəs torpağından batmışıq,
Sənsən bizim bu dünyada məsləkimiz, amalımız,
Yolumuza işıq saçsın ulduzumuz, hilalımız.
Nəfəsimiz – ulu Qorqud dədəmizin öz nəfəsi,
Mahnımızda yaşar bizim babaların addım səsi.
Bu torpaqda, bu diyarda dünən vardıq, bu gün varıq,
Biz keçmişə güvəndikcə gələcəyə addımlarıq.
Vətən bizsiz də keçinər, keçinmərik biz Vətənsiz.
Bu məramla boy atmışıq Çənlibellər üstündə biz.
Şəhidlərin qanı ilə yoğrulubdur torpağımız,
Qəlbimizdə dalğalanır öz üç rəngli bayrağımız.
Qardaşlıqdır şüarımız, biz həmişə əl tutanıq,
Düşmən bizə əl uzatsa, düşmənliyi unudanıq.
Könlümüzdə bir vahiddir güneyimiz, quzeyimiz,
Vətən – bizim namusumuz, biz Vətənik, Vətən də biz.

*Bəxtiyar Vahabzadə*

Vətənimiz Azərbaycandır, ulu babalarımızın bugünkü nəsillərə Müqəddəs əmanəti – Azərbaycan! Atalarımızın hər bir Vətən övladına candan əziz yadigarı – Azərbaycan! Vətən bizim tərcümeyi-halımız, şanlı keçmişimiz, bu günümüz, sabahımız, əbədiyyətimizdir. Vətən torpağı bizə candan əzizdir. Çünki bu torpağın hər qarışı yağı düşmənlərə qarşı ölüm-dirim çarpışmalarında şəhid düşmüş ata-babalarımız qanından yoğrulmuşdur. Bizim üçün dünyada vətəndən müqəddəs heç nə yoxdur!.. Dünyanın ən qədim məmləkətidir vətənimiz!.. Azərbaycan–bəşəriyyətin qədim beşiyidir. Dünyada nə qədər ölkələr var?! Hər kəsə, hər xalqa öz ölkəsi, öz vətəni əzizdir. Biz də öz vətənimizə – Odlar Yurdu Azərbaycanımıza bağlıyıq, onunla nəfəs alırıq, yaşayırıq. Çünki adi bir torpaq parçası,

sadəcə bir ərazi deyil, mənim Vətənim, yer üzünün ən qədim mədəniyyət ocaqlarından biridir ana yurdum Azərbaycanım. Yüz min illərlə hesablanır mənim torpağımda ömür sürmüş ən qədim insanın – Azıx adamının yaşı. Azərbaycan torpaqlarında dünyanın 4-cü tapıntısı 350 min illik tarixə malik neandertal uyuyur. Dünyanın çox görkəmli alimləri uzun axtarışlardan sonra hamılıqla eyni nəticəyə gəlmiş, qiymətli bir xəritə yaratmışlar. "Avropanın ən qədim sakinləri" adını vermişlər bu xəritəyə. Avropanın ən qədim sakinlərindən, dünyanın ən qədim xalqlarından biridir mənim xalqım – mənsub olduğumuz böyük Azərbaycan xalqı!

Hər bir xalqın, millətin sahib olduğu ən böyük sərvət onun müstəqil dövlətinin olmasıdır. Lakin müstəqillik təsadüfən qazanılmır və ya onu hədiyyə etmirlər. Müstəqilliyə gedən yol böyük mübarizələrdən keçir. Onu qazanmaq və qoruyub saxlamaq qurban tələb edir.

Azərbaycan xalqı tarix boyu yadelli işğalçılara qarşı ölüm-dirim mübarizəsi aparmış, istiqlal yolunda saysız-hesabsız şəhidlər vermiş, tarixə yenilməz şəxsiyyətlər bəxş etmişdir. XX əsrin əvvəllərində Azərbaycan xalqı özünün minlərlə cəsur oğlunun qanı-canı bahasına müstəqillik qazandı.

Onların hər birinin həyatı, yaradıcılıq yolu bugünkü nəslə örnək ola bilər. Elə şəxsiyyətlər ki, əməlləri tarixi hadisələrin gedişinə təsir göstərmişdir. Sultanlar və şahlar, üsyançılar və inqilabçılar, sərkərdələr və məmurlar, rəssamlar və alimlər, heykəltaraşlar və həkimlər, şairlər və bəstəkarlar – bu insanlar Azərbaycan tarixini əyani surətdə təsəvvür etməyə imkan verir.

Bəşər var olduğu gündən Azərbaycan xalqı böyük dahilər, dünya miqyasında şöhrət tapan şəxsiyyətlər yetişdirib, Azərbaycan tarixində yüzlərcə parlaq şəxsiyyətlər olub. Atropat, Tomris, Cavanşir, Babək, Bəhmənyar, Q.Təbrizi, X.Şirvani,

Nizami, M.Ə.Rəsulzadə, H.Cavid, Mübariz İbrahimov və s. yüzlərlə Azərbaycan övladlarını saymaqla qurtarmaz.

Vətən-müdrikliyi, uzaqgörənliyi, sərkərdəlik istedadı, və igidliyi ilə dünyaya səs salan... hələ 600 ilə yaxındır ki, Azərbaycanımızda topçuluq sənətini inkişaf etdirmək, güclü nizami ordu yaratmaq üçün can qoymuş böyük babamız Uzun Həsənin yadigarıdır. Böyük insan, müdrik və uzaqgörən sərkərdə Uzun Həsənin bu il 595 yaşı tamam olur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə "Tarixin şanlı səhifəsi Uzun Həsən" adlanır və görkəmli şəxsiyyətin həyat və yaradıcılığından bəhs edir. II hissə isə "Oğuzların tarixini yazan insan Uzun Həsən" adlanır və bu mövzuya uyğun kitabxanada görüləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Həsən bəy Bayandur (Uzun Həsən) 1423-cü ildə anadan olmuşdur. Əli bəy ibn Osman bəyin oğlu, Qara Yuluq Osman Bəyin nəvəsidir. Kitab-i Diyarbəkriyyə kitabında babası Osman bəydən başlamaqla Bayandur xanın Uzun Həsənin 52-ci babası olması göstərilir. Uzun Həsənin uşaqlıq və gənclik illəri barədə heç nə məlum deyil. Bircə onu ehtimal etmək olar ki, o, yaxşı təhsil almış və yenicə yaranan Ağqoyunlu dövlətinin hərbi təlimlərində iştirak etmişdir. Uzun Həsənin sarayında səfir olmuş Venesiya diplomatı Ambrozio Kontarini Uzun Həsən haqqında yazıb: "Uzun Həsən çox yeyir və öz qonaqlarına qulluq etməyi sevir. Ümumiyyətlə, o, şən xasiyyətli, arıq, ucaboy, qırmızısifət bir kişidir və üzündə tatar cizgiləri var".

Uzun Həsən, Həsən bəy Bayandur – Ağqoyunlu dövlətinin (1468-1503/1508) banisi, eyni zamanda mənşəcə Oğuz türklərindən olan sərkərdə və dövlət xadimi Bayandur

tayfasından idi. Uca boylu olduğuna görə "Uzun Həsən" ləqəbini almışdı.

Uzun Həsən Osmanlı imperiyası, Venesiya Respublikası, Böyük Moskva Knyazlığı, Qızıl Orda, Polşa, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Misir, Hindistan və başqa dövlətlərlə diplomatik münasibətlər qurub.

Uzun Həsən Ağqoyunlu tayfalarını birləşdirib, Dəclə və Fərat çaylarının yuxarı axarı boyunca paytaxtı Diyarbəkirdə yerləşən kiçik bir ərazidə öz hakimiyyətini qurmuşdur. Özünə qərb dövlətləri arasında müttəfiqlər axtarır, bir neçə Avropa ölkəsindən odlu silah almaq üçün danışıqlar aparırdı.

1467-ci ildə Muş düzündə Cahanşahı məğlubiyyətə uğradıb. Qaraqoyunlu dövlətini süquta yetirib. Mahmudabad döyüşündə Əbu Səidi məğlub edərək Teymurilər dövlətini zəiflədir. Daha sonra paytaxtı Təbriz şəhəri olan böyük Ağqoyunlu dövləti qurmuşdur. İlk növbədə ölkə iqtisadiyyatının inkişafına təkan vermək üçün bir sıra islahatlar aparıb və "Padşah Həsənin qanunları" adı ilə məşhurlaşan qanunnamə qəbul edib. Vergilərin yığılması qanuniləşir və sistematik şəkil almış, sənətkarlıq və ticarət inkişaf etmişdir, xəzinə dolur və Azərbaycanda mərkəzləşdirilmiş dövlət yaranmışdır. Uzun Həsən ordunu təkmilləşdirmək məqsədilə Avropadan hərbi mütəxəssislər dəvət etmişdir. Odlu silah, o cümlədən top istehsalına başlanılıb, topçu kadrlar hazırlanmasının əsası qoyulub. Eyni zamanda tikinti işləri geniş vüsət alıb, Təbrizdə örtülü Qeysəriyyə bazarı, Nəsriyyə universiteti ilə birlikdə möhtəşəm məscid və digər ictimai binalar da tikilib. Sarayda alimlər məclisi təşkil olunmuş, zəngin kitabxana yaradılmışdır.

Osmanlı İmperiyası əleyhinə yaradılmış koalisiyanın daha da möhkəmləndirilməsinə çalışan Uzun Həsən Sultan II Mehmetə qarşı bir neçə döyüş aparıb. 1478-ci il yanvarın 5-də vəfat edib və özünün tikdirdiyi Nəsriyyə məscid kompleksində dəfn

olunub. Onun vəfatından təxminən 20 il sonra Ağqoyunlu dövləti iki yerə parçalanmışdır. 1501-ci ildə isə Şah İsmayıl Ağqoyunlu dövlətinin mövcudluğuna son qoydu.

*Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlu dövləti 1453 – 1478 ci illərdir.*

Uzun Həsənin anadan olmasının 595 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, oxucularla söhbət, biblioqrafik icmal, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bu istedadlı şəxsiyyəti sevdirmək, gördüyü işləri gənc nəslə və şagirdlərə tanıtmaq və eyni zamanda oxucularda mütaliə vərdişi aşılamaq məqsədi daşıyır. Uzun Həsənin 595 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər. “Vətən üçün yaşayanlar yaşadırlar Vətəni”, “Görkəmli şəxsiyyətlər”, “Tarixin Uzun Həsən zirvəsi”, “Oğuz elinin yetirməsi – Uzun Həsən”, “Qalibiyyət simvolu Uzun Həsən”, “Tarixin qürur verən səhifəsi – Uzun Həsən” və s. Bütün bunlarla yanaşı onun müxtəlif illərdə fırçayla çəkilmiş foto stendi, bundan başqa Uzun Həsən haqqında yazılmış tarixi kitablar, ədib və tarixi yazarların onun haqqında dövri mətbuatda yazdığı materiallar sərgidə öz yerini alır. Görkəmli insanların Uzun Həsən haqqında söylədikləri sitatlar və şeir parçaları da sərgidə verilir.









Uzun Həsənin 595 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *“Tarixin böyük oğlu”* adlı **şeir müsabiqəsidir**. Kitabxanaçı ilk olaraq vətənpərvərliyə aid bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər heyəti öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Uzun Həsənin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır.

*Kitabxanaçı:* Baş Qafqaz sıra dağları ilə Araz çayı arasındakı Azərbaycan torpaqlarında Oğuz tayfalarından olan Ağqoyunlular yaşayırdılar. Onlar maldarlıqla, əsasən də qoyunçuluqla məşğul olurdular. Buna görə də Ağqoyunluların bayraqlarında ağ qoç təsvir olunurdu. Ağqoyunlu dövlətinin başında duran hökmdarlar sultan və padşah adlanırdılar. Padşah Uzun Həsənin dövründə Ağqoyunlu dövləti çox gücləndi. O, dövlətinin güclənməsi üçün xüsusi “Qanunnamə” hazırlatdı. Qaynaqlarda Uzun Həsənin islahatçılıq fəaliyyəti haqqında müfəssəl məlumat verilməmişdir. Onun tərtib etdiyi “Qanunnamə” nin mətni bizə gəlib çatmamışdırsa da, islahatlar haqqında salnaməçilərin “Həsən padşah qanunları” və ya “Dəsturi-Həsən bəy” adlandırdıqları qanunlar barədəki cüzi məlumatlarına əsasən mühakimə yürütmək mümkündür. Ağqoyunlular dövlətinin Osmanlı imperiyası tərkibinə qatılan (Diyarbəkir, Mardin, Urfa, Ərzincan, Xarput və s.) qərb ərazilərinə aid olan bəzi sənədlər Türkiyə arxivlərində saxlanılır. Bu mənbələr Ağqoyunlu dövlətinin vilayətlərində feodal münasibətlərini araşdırmaq baxımından əhəmiyyətlidir. Uzun Həsənin islahatının ümumi xarakteri haqqında “Tarix əl-Qiyasi” də deyilir: “Uzun Həsən ədalətli və xeyirxah idi. O, bütün dövləti ərazisində tamğanı ləğv etmək istəyirdi. Lakin əmirləri

onunla razılaşmadılar. Sultan tamğanı yarıbayarı azaldaraq iyirmidə bir dirhəmə çatdırmışdı... O, bütün ölkədə yığılan vergilərin həcmini dəqiqləşdirdi. Uzun Həsən əhali arasındakı mübahisə və şikayətlərə aid "Qanunnamə" də tərtib etdirmişdi. O, günahkarları sərt şəkildə cəzalandırmağı tələb edirdi. Sultan "Qanunnamə" ni icra edilmək üçün dövlətin bütün vilayətlərinə göndərmişdi".

Uzun Həsənin tamğanı ləğv etmək cəhdi zəngin gəlir mənbəyini itirmək istəməyən əmirlərin güclü müqaviməti ilə qarşılaşdı. Buna baxmayaraq, tamğa məhsulun dəyərinin 5 faizi həcmində (yəni 1/20) alınmağa başlandı. Buradan belə bir nəticəyə gəlmək olar ki, islahata qədərki dövrdə həmin vergi 1/10 həcmində alınmırdı. Digər vergilərin də həcmi dəqiqləşdirildi. Məsələn, torpaq vergisi azaldılaraq məhsulun həcminin 1/6-i qədər oldu.

Uzun Həsən feodal özbaşınalığını məhdudlaşdırmaq və vergilərin yığılması zamanı sui-istifadə hallarını aradan qaldırmaqla iqtisadiyyatın inkişafına təkan verdi. Azərbaycan tarixində Salari hökmdarı Mərziban ibn Məhəmmədin "Qanunnamə" sindən sonra ən möhtəşəm "Qanunnamə" Həsən Bayandurinin dövründə verilən qanunlar toplusudur.

Ağqoyunlu hökmdarı Uzun Həsən dövlətin siyasi və isqtisadi qüdrətini artırmaq üçün, xüsüsi "Qanunnamə" tərtib etdirmişdir. Tarixçilərin qeyd etdiyi kimi, Uzun Həsən uzaqgörən dövlət xadimi idi. O, yaxşı başa düşürdü ki, uğurlu hərbi qələbələr nəticəsində yaradılmış Ağqoyunlu impertorluğu ərazicə geniş olsada, daxilən möhkəm deyil. Hər hansı təhlükəni aradan qaldırmaq üçün, real gücə əsaslanan, güclü mərkəzləşdirilmiş dövlət yaratmaq lazımdır. Ölkənin iqtisadi həyatını dirçəltmək üçün, ölkədə daxili nizam-intizamı möhkələndirmək üçün xüsusi "Qanunnamə"lər hazırlatdırdı. Bu "Qanunnamə" lər XV-əsrin ikinci yarısında meydana gəlmişdir.

“Qanunnamə”lər vergi ödənilməsində qayda-qanun yaratmaqla özbaşına yığılan və həmin dövürdə “Şiltaqat” adlanan hər cür vergini ləğv etdi. Vilayət ərazisindən keçirilib başqa yerə satılmaq üçün aparılan maldan bac, həmin ərazidə satılan maldan isə tamğa vergisi alınmaq nəzərdə tutulmuşdu. Tamğa vergisinin dəyəri 5% idi, bac isə bundan qat-qat aşağı alınırdı. Uzun Həsənin hökmdarlığı dövründə köçəri maldarlar “Qopuçur” əvəzinə “Rəsmi yataq” adlanan vergi ödəyirdilər. Bu vergi “qopçur” və “Çobanbəyi”yə nisbətən yüngül idi. Məsələn, Əvvəllər hər 100 baş qoyuna görə 1 qoyun ödənilirdisə, islahatdan sonra hər 300 baş qoyuna 1 qoyun vergi kimi ödənilirdi.

Qeyd edək ki, Şərqdə, qərbdə, dünyanın hər yerində məşhur olmuş istedadlı diplomat ağbirçək nənəmiz, tariximizin ilk diplomat qadını, görkəmli dövlət xadimi Sara xatın Uzun Həsənin anasıdır. Sara xatın bütün dövlət işlərində Uzun Həsənin yaxın məsləhətçisi idi. Bir çox ölkələrdən Sara xatının adına məktublar gəlirdi. Xarici ölkələrdən Ağqoyunlu dövlətinin paytaxtına gələn elçilər, səyyahlar, dövlət adamları Uzun Həsənlə görüşməzdən əvvəl onun görüşünə gedirdilər. Xarici ölkə səfirliklərinin nümayəndələri Sara xatınla danışıqlar aparırdılar.Uzun Həsən öz dövrünün böyük alimlərindən birinə ulu babalarımız olan oğuzların tarixini də yazmışdır. Bu, böyük hökmdarın sonrakı nəsillərə qoyub getdiyi çox qiymətli töhfədir.

Əziz oxucular, gəlin uzaqgörən sərkərdəmiz Uzun Həsənin 595 illik yubileyi münasibətilə təşkil edilmiş vətən haqqında şeir müsabiqəsində iştirak edən oxucularımızı dinləyək.

*Birinci iştirakçı Ələkbər Sadiqin “Azadlığın mübarək!” adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.*

Ulu tanrım, ey mənim haqq olanım,
Əsarətin zəncirini qırıb atdım.
Sən vermisən, azadlıqdır mənim haqqım.

Dodaqlarım titrəyərək,
Azərbaycan, Azərbaycan söylədi.
Vətən oğlu, Vətən eşqi nə gözəldir.
Torpağına and içərək,
Ləyaqətli bir övladtək
Gəlin birgə söyləyək:
Azərbaycan, azadlığın mübarək!

*İkinci iştirakçı İsmayıl İmanzadənin "Gerbim, Himnim, Bayrağım" adlı şeirini deməyə başlayır.*

Sərvətimdi, varımdı,
Yenilməz vüqarımdı
Andım, ixtiyarımdı
Gerbim, Himnim, Bayrağım.

Varlığımdır, səddimdir,
Basılmaz sərhəddimdir.
Səsim, imzam, xəttimdir.
Gerbim, Himnim, Bayrağım.

Kəpəzdi, Savalandı,
Ürəyimdəki qandı,
Anam Azərbaycandı!
Gerbim, Himnim, Bayrağım...

*Üçüncü iştirakçı S.Rüstəmxanlınn "Vətən" adlı şeirini söyləyir.*

Bir əlçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu.
Yandıqca odlanan ocaqdı,
Daddıqca dadlanan arzudu.
Bir dərə bahar leysandı,
21 Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeiridi,

Dağları dumanda itən-
Vətən... Vətən! ...

*Dördüncü iştirakçı Zəlimxan Yaqubun "Ordum varsa, yurdum var" adlı şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Mənə ordu gərəkdir, xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir, nəfəs kimi, can kimi.
Mənə ordu gərəkdir, sarsılmaz cahan kimi.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Düşmənin yuvasını əlimlə pozmalıyam.
Səngəri dırnağımla, dişimlə qazmalıyam.
Tarixi qələmlə yox, qanımla yazmalıyam,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Gözlər od, əllər silah, canlar sipər olmalı,
Kirpiyimiz sıxılmış yurda çəpər olmalı,
Damarda qan coşmalı, canda təpər olmalı,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra isə qalib və digər iştirakçılara mükafat verilir.*

Tarixin şanlı salnaməsinə adını qızıl hərflərlə həkk etdirən mahir sərkərdə Uzun Həsəni gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha qabarıq şəkildə göstərmək üçün kitabxanada bir sıra tədbirlər görülməkdədir. Bu tədbirlərdən biri də **oxucularla söhbət** adlanır. Söhbət *"Yurdun qəhrəman övladları"* başlığı altında ali məktəb tələbələri və yuxarı sinif şagirdləri arasında keçirilir. Kitabxanaçı gələn qonaqları və iştirakçıları salamladıqdan sonra Uzun Həsən və onun keçirdiyi şanlı ömür yolu barədə məlumat verir.

*Kitabxanaçı:* Uzun Həsənin adı çəkiləndə çox zaman onun uzun olması, Ağqoyunlu dövlətinin əsasını qoyması yada salınır.

Lakin çox az adam bilir ki, məhz o, pərakəndə olan qanunları vahid "Qanunnamə" çərçivəsində birləşdirərək indiki hüququ kodekslərin əsasını yaratmış, islami bilikləri sadə əhaliyə çatdırmaq üçün "Quran" kitabını Azərbaycan türkcəsinə tərcümə etdirmiş, həmçinin apardığı müharibələr vasitəsilə ticarət yollarını və limanları nəzarət altına almış və beləliklə, Azərbaycanın gələcəkdə inkişafını təmin etməyə çalışmışdır. Azərbaycan tarixinə Uzun Həsən uzaqgörən siyasətçi, mahir diplomat, bacarıqlı sərkərdə, qanunlar toplusu tərtib etməklə mərkəzləşdirilmiş dövlət qurmağa çalışan padşah, həmçinin quruculuq işlərinə, elm və mədəniyyətə himayədarlıq edən hökmdar kimi daxil olmuşdur. Uzun Həsən (1424-1478) Nüsrətəddin Əbu-Nəsr Həsən bəy 1424-cü ildə Azərbaycanın bayandur tayfasında anadan olmuşdur. Hələ erkən orta əsrlər dövründə Azərbaycan ərazisində məskunlaşmış bu türkdilli tayfa səlcuqların və monqolların yürüşləri nəticəsində Göyçə gölü, Şərqi Anadolu sərhədi, Dəclə və Fəratın yuxarı axarı arasında möhkəmlənmişdi. XIV əsrin sonunda fəallaşan tayfa tədricən Ağqoyunlu tayfa birliyi adı ilə tanınan türkdilli tayfalardan ibarət güclü ittifaq yaratmışdır. Həsən bəy bu tayfa birliyini idarə edən ailədə anadan olmuşdur. Həsən bəy uşaq yaşlarından hərb işinə aludə olmuşdur. Uca boyu, fövqəladə fiziki gücü və eyni zamanda nəhəng zahiri görkəmi ona "Uzun Həsən" adının verilməsinə səbəb olmuşdur. Onun uşaqlıq və gənclik illərini təsvir edən XV əsr salnaməçisi Əbu-Bəkr Tehrani yazırdı ki, Uzun Həsən olduqca sadə həyat tərzi sürür, bəy olsa da, təkcə bəylərlə deyil, sadə insanlarla da əlaqə saxlayır, durub-otururdu. Hamı ilə birlikdə əziyyətlərə qatlaşan Uzun Həsən özünə qarşı hansısa xüsusi şəraitin yaradılmasını tələb etmir və bununla dövrün bir çox şahzadələrindən seçilirdi. 1434 - 1453-cü illərdə dövlət yaratmağa yaxın olan Ağqoyunlu tayfa birliyi bu yolda qonşu və qohum tayfa birliyi olan

Qaraqoyunluların yaratdığı eyniadlı dövlətlə toqquşur və Azərbaycanda möhkəmlənə bilmir. Bununla belə, Diyarbəkiri özünə mərkəz seçən tayfa birliyi regiona nəzarət etmək fikrindən dönmür. 1453-cü ildə Uzun Həsənin atası vəfat edəndən sonra anaları Sara xatun oğulları arasında az qala başlanacaq ara müharibəsinin qarşısını almışdır. Öz biliyi və müdrikliyi ilə seçilən bu qadın Azərbaycanın orta əsr tarixində xüsusi yer tuturdu. Tayfa birliyinin başında möhkəmlənən Uzun Həsən regionun ticarət yollarını nəzarət altına almaq istiqamətində ardıcıl tədbirlər həyata keçirirdi. Artıq bu dövrdə o, dəfələrlə sayca üstün olan düşməni məğlub edərək mahir sərkərdə kimi şöhrət tapmışdır. Döyüşlərdə müxtəlif hərbi hiylələr tətbiq edən Uzun Həsən özü də bilavasitə hərb meydanında iştirak edirdi. Ağqoyunlu tayfa birliyinin genişlənməsi və möhkəmlənməsi Qaraqoyunlu dövlətinin başçısı padşah Cahanşahı narahat edir və o, 1467-ci ildə Uzun Həsənə qarşı yürüş başlatdı. Həmin ildə Muş döyüşündə Uzun Həsən qalib gəldi, Cahanşah həlak oldu. 1468-ci ildə Təbrizi tutan Uzun Həsən Qaraqoyunlu dövlətini ləğv edib, əvəzinə Azərbaycan Ağqoyunlu dövlətini yaratdı. Bu dövrdə Azərbaycana Teymurilər dövlətinin başçısı Əbu Səid yürüş etdi. Onun məqsədi Əmir Teymurun dövlətini bərpa etmək, Azərbaycanı və ətraf əraziləri zəbt etmək idi. Özünü mahir diplomat kimi göstərən Uzun Həsən Əbu Səidin müttəfiqlərini ondan uzaqlaşdırmış, özü isə Ərdəbil hakimi Şeyx Heydər və Şirvanşah Fərrux Yasarın qismində müttəfiq qazanmışdı. Nəticədə 1469-cu ilin əvvəllərində baş vermiş Mahmudabad döyüşündə Əbu Səid məğlub edilmiş və öldürülmüşdür. Mərkəzləşmə siyasəti yürüdən Uzun Həsən Azərbaycan Ağqoyunlu dövlətini gücləndirmək məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. Uzun Həsənin dövründə dövlətin ərazisi Qafqaz sıra dağlarından Fars körfəzinədək, Xorasandan Mərkəzi Anadoluyadək uzanmışdır. Uzun Həsənin

dini siyasəti ölkənin möhkəmlənməsinə yönəldilmişdi: dövlətin əsas dininin faktiki sünnilik olmasına baxmayaraq şiələr təqib olunmurdu. O hətta bacısını şiələrin lideri Şeyx Cüneydə, qızı Aləmşah Bəyimi isə (I Şah İsmayılın anası) Cüneydin ölümündən sonra onun oğlu Şeyx Heydərə ərə vermişdi. 80 Dövlətin ən məşhur din xadimləri Uzun Həsənin əmri ilə müsəlmanların müqəddəs kitabı Quranı Azərbaycan dilinə tərcümə etmişdilər. Bu addım islami biliklərin sadə əhaliyə çatdırılmasında mühüm addım idi. Avropa dövlətləri və Rusiya ilə daimi diplomatik əlaqələr yaradılmış, Təbrizdə onların səfirlikləri, bəzi Avropa şəhərlərində isə Ağqoyunlu səfirlikləri açılmışdır. Geniş quruculuq işləri aparan Uzun Həsəndən dövrümüzə bir çox abidələr qalmışdır. Həsən-Keyf qalası, Təbrizdə Nəsriyyə məscidi və onun nəzdində fəaliyyət göstərən mədrəsə, bir çox digər dini və ictimai binalar Uzun Həsən tərəfindən inşa etdirilmişdir. Təbrizdə ucaldılmış Qeysəriyyə bazarı bir zamanlar dünyanın ən böyük üstüörtülü bazarı hesab olunurdu. Uzun Həsənin sarayında elmi məclis fəaliyyət göstərir, burada 58 alim çalışırdı. Onun yaratdığı xüsusi ansamblda 98 musiqiçidən əksəriyyətini aşıqlar təşkil edirdi. Avropa ilə ticarət əlaqələrini günü-gündən genişləndirən Uzun Həsən eyni zamanda kompleks tədbirlər həyata keçirirdi. Belə ki, Osmanlı dövləti Avropaya yolları bağladıqda aydın olur ki, ənənəvi Böyük İpək yolu marşrutu qapanıb. Odur ki yolun mərkəzində yerləşən Azərbaycana böyük zərər dəyirdi. Uzun Həsən Qara dənizin cənub sahillərində yerləşən Trabzon imperatorluğu vasitəsilə Avropa ilə əlaqə yaratmağa çalışdı. Bu məqsədlə Uzun Həsən Trabzon imperatoru IV İohanın qızı Dəspinə xatunla evlənib və bu izdivacdan Uğurlu Məhəmməd, Maqsud bəy, Zeynal bəy, Sultan Xəlil, Mirzə Yaqub, Yusif Mirzə və Məsih Mirzə adlı 7 oğlu olub.1461-ci ildə osmanlı qoşunu Trabzona hücum edəndə hələ Qaraqoyunlularla

vuruşmalara başı qarışan Uzun Həsən başda anası Sara xatun olmaqla diplomatik danışıqlara nümayəndə heyəti göndərib. Osmanlıların yürüşə toplar götürməməsindən xəbərdar olan Uzun Həsən danışıqlar yolu ilə onları yubatmaq və bundan istifadə edib qoşunları ilə Trabzona doğru irəliləməyi planlaşdırırdı. Lakin Trabzon imperatoru Trabzonu osmanlılara döyüşsüz təslim etdiyindən Sara xatunun missiyası əhəmiyyətini itirdi. Bununla belə, 1461-ci ildə Yassıçəməndə Ağqoyunlularla osmanlılar arasında müqavilə imzalanıb: osmanlılar Trabzon şəhərini, Ağqoyunlular isə onun bütün xəzinəsini götürdülər. Avropaya yol açmaq fikrindən dönməyən Uzun Həsən Aralıq dənizi limanlarından istifadə etmək qərarına gəlmişdir. Danışıqlardan sonra Venesiya Respublikası, Macarıstan, Neapol krallığı, Papalıq, Rodos, Kipr, Burqundiya hersoqluğu, Qaraman əmirliyi ona qoşulmuşdur. Onlar müharibə zamanı osmanlılara qərbdən zərbə vuracaqlarına söz verirdilər. 1472-ci ildə Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında birgə mübarizə haqqında Təbriz müqaviləsi bağlandı. Digər Avropa dövlətləri bu müqaviləyə qoşulmur və gözləmə mövqeyi seçirdilər. 1472 - 1473-cü illər Ağqoyunlu-Osmanlı müharibəsi hər iki dövlətin var qüvvələrinin səfərbər edilməsini tələb edirdi. Ağqoyunlu qoşunu Osmanlı dövlətinin lap içərilərinə qədər irəliləyir və Aralıq dənizinin sahilində yerləşən Qaraman vilayətinə çatmışdır. Lakin Venesiya öhdəliklərini yerinə yetirmədiyi üçün Ağqoyunlu dövlətinin planları pozuldu. 1473-cü ildə baş vermiş birinci döyüşdə Uzun Həsən qalib gəlir, lakin ikinci döyüşdə məğlub edilib. Aydın olur ki, Ağqoyunlu qoşunları bütün Osmanlı dövlətinin ərazisini yarıb Avropaya çıxış əldə etmək iqtidarında deyildi. Bunu başa düşdükdən sonra Uzun Həsən Suriya və ya Gürcüstanı məğlub edib, ya Aralıq dənizi, ya da Qara dəniz vasitəsilə Avropaya çıxış əldə etmək qərarına gəldi. O, Urfa və Amid şəhərlərinin yaxınlığında

Suriyanı nəzarət altında saxlayan Misir məmlük dövlətinin qoşunlarını məğlub etdi. Daha sonra isə gürcü çarlarını da məğlub etdi. Lakin qələbələrinin nəticəsini görə bilmədi. Uzun Həsən 1478-ci ildə Təbrizdə vəfat edib və Nəsriyyə kompleksində dəfn olunub.
Tədbirin sonunda yuxarı sinif şagirdləri "Altun Kitab"ın nəşr etdiyi "Hökmdarlar və Sərkərdələr" adlı kitabdan parçalar səhnələşdirirlər.

Azərbaycanın tarixi şəxsiyyətləri arasında özünəməxsus yeri olan istedadlı dövlət başçısı Uzun Həsənin mübarizəsini gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha qabarıq şəkildə göstərmək üçün kitabxanada bir sıra tədbirlər görülməkdədir. Bu tədbirlərdən biri də *"Tarix rəsm dünyamızda"* adlı **rəsm müsabiqəsidir.** Mövzu ilə yaxından tanış olan iştirakçılar diqqətini cəlb edən və yaddaşına həkk olan hər hansı bir məkanın, döyüş anının, o dövrdə istifadə olunan əmək, ev, döyüş alətinin, eksponat və hər hansı bir görkəmli şəxsiyyətin, eləcə də Uzun Həsənin portretini əks etdirən rəsmlər çəkirlər. Təyin olunmuş vaxtda kitabxanaya gələrək tədbirdə iştirak edirlər. Şagirdlər daha çox qəhrəmanlıq personajlarına, tarixi abidə və muzey əşyalarına, hər hansı bir dahi şəxsiyyətin və ən əsası da Uzun Həsənin tablosuna əsaslanaraq müraciət edirlər. Müsiflər heyəti rəsm əsərlərini diqqətlə nəzərdən keçirərək qalibləri mükafatlandırırlar.

## Ədəbiyyat siyahısı


### *Kitablar*

**Babayeva N.** Azərbaycan şahları : Uşaq ensiklopediyası. - Bakı : Qələm , 2016. - 176 s.

**Kərimzadə F.** Xudafərin körpüsü : tarixi roman. - Bakı : Çaşıoğlu, 2007. - 328 s.

**Qocayev Ə.** Uzun Həsən. - Bakı : Altun kitab, 2007. - 15 s.

### *Dövri mətbuatda*

**Əliyeva A.** Ulu türk tarixinin Uzun Həsəni : Bu il görkəmli dövlət xadiminin dünyaya gəlişinin 595 ili tamam olur // Mədəniyyət. - 2018. - 28 sentyabr. - № 71. - S. 15.

**Mahmudov Y.** Tarixi şəxsiyyətlərimizə sahib çıxaq // Azərbaycan. - 2017. - 20-22 may. - № 4. - S. 5.

# Vətən üçün yaşayanlar yaşadırlar Vətəni

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 54
Çapa imzalanmışdır:25.10.2018
Tirajı:100
Pulsuz